| | |
|---|---|
| **AKTIN NÖVÜ** | **AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI** |
| **QƏBUL EDİLDİYİ TARİX** | **10.03.2017** |
| **QEYDİYYAT NÖMRƏSİ** | **86** |
| **ADI** | **"Dövlət qulluğuna qəbul, dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi və dövlət qulluğu vəzifələrinin tutulması məqsədi ilə keçirilən test imtahanları üçün test nümunələrinin hazırlanması, ekspertizası, təsdiqi, test imtahanının təşkili, keçirilməsi, qiymətləndirmənin aparılması Qaydası"nın təsdiq edilməsi haqqında** |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | **Xalq Qəzeti (Dərc olunma tarixi: 14-03-2017, Nəşr Nömrəsi: 56), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-03-2017, Nəşr nömrəsi: 03, Maddə nömrəsi: 485)** |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | **14.03.2017** |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | **330.010.000** |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | **14201703100086** |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | **15.03.2017** |

**“Dövlət qulluğuna qəbul, dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi və dövlət qulluğu vəzifələrinin tutulması məqsədi ilə keçirilən test imtahanları üçün test nümunələrinin hazırlanması, ekspertizası, təsdiqi, test imtahanının təşkili, keçirilməsi, qiymətləndirmənin aparılması Qaydası”nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 31 may tarixli 267-VQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 860 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 9 avqust tarixli 1008 nömrəli Fərmanının 1.1.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Dövlət qulluğuna qəbul, dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi və dövlət qulluğu vəzifələrinin tutulması məqsədi ilə keçirilən test imtahanları üçün test nümunələrinin hazırlanması, ekspertizası, təsdiqi, test imtahanının təşkili, keçirilməsi, qiymətləndirmənin aparılması Qaydası” təsdiq edilsin (əlavə olunur).

2. Ləğv olunmuş Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın “Dövlət orqanlarında dövlət qulluğuna qəbul ilə bağlı keçirilən test imtahanları üçün test nümunələrinin hazırlanması və ekspertizası Qaydaları”nın təsdiq edilməsi barədə” 2012-ci il 5 noyabr tarixli 119 nömrəli və “Dövlət orqanlarında dövlət qulluğuna qəbul üzrə test imtahanının təşkili, keçirilməsi və qiymətləndirilmənin aparılması Qaydaları”nın təsdiq edilməsi haqqında” 2013-cü il 30 iyul tarixli 162Q nömrəli qərarları ləğv edilsin.

**Azərbaycan Respublikasının Baş naziri   Artur Rasi-zadə**

Bakı şəhəri, 10 mart 2017-ci il
86

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2017-ci il 10 mart tarixli 86 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Dövlət qulluğuna qəbul, dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi və dövlət qulluğu vəzifələrinin tutulması məqsədi ilə keçirilən test imtahanları üçün test nümunələrinin hazırlanması, ekspertizası, təsdiqi, test imtahanının təşkili, keçirilməsi, qiymətləndirmənin aparılması**

## QAYDASI

### 1. Ümumi müddəa

1.1. Bu Qayda “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 28.2-ci maddəsinin ikinci abzasına *və 28-1-ci maddəsinə* uyğun olaraq hazırlanmışdır və Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (bundan sonra - Mərkəz) tərəfindən inzibati və yardımçı vəzifələrin təsnifat toplusuna uyğun olaraq, *1-5-ci* kateqoriya dövlət orqanlarında *(yerli icra hakimiyyəti orqanları, Bakı Şəhər İcra Hakimiyyəti başçısının yanında olan orqanlar, yerli icra hakimiyyəti başçılarının yanında avtomobil nəqliyyatı ilə sərnişindaşıma idarələri, yerli icra hakimiyyəti başçılarının inzibati ərazi dairələri üzrə nümayəndəlikləri və sahə inzibati ərazi dairələri üzrə nümayəndəlikləri istisna olmaqla)* inzibati vəzifələrin birinci-yeddinci təsnifatına *(Azərbaycan Respublikasının xarici ölkələrdə ~~fəaliyyət göstərən səfirlik və konsulluqlarında təyin olunan~~ ticarət nümayəndələri istisna olmaqla)* uyğun olan vəzifələr ~~və ali-beşinci kateqoriya dövlət orqanlarında yardımçı vəzifələr~~ üzrə dövlət qulluğuna qəbul və dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üçün keçirilən test imtahanları üzrə test nümunələrinin hazırlanması, ekspertizası, təsdiqi, həmçinin test imtahanının təşkili, keçirilməsi, qiymətləndirilmənin aparılması qaydasını müəyyən edir.[1]

### 2. Test nümunələrinin hazırlanması, ekspertizası və təsdiqi

2.1. Mərkəz dövlət qulluğuna qəbul və dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üçün inzibati və yardımçı vəzifələrin təsnifat toplusuna uyğun olaraq *inzibati vəzifələr üzrə* test imtahanı keçirir. Test imtahanı dövlət qulluğu vəzifələrinin növləri üzrə aşağıdakı qruplara uyğun keçirilir:[2]

2.1.1. A növü - inzibati rəhbər (idarəetmə) vəzifələr üzrə:
~~1. AA qrupu;~~[3]
2. AB qrupu;
3. AC qrupu.
2.1.2. B növü - inzibati icraçı vəzifələr üzrə:
1. BA qrupu;
2. BB qrupu.
~~2.1.3. C növü - yardımçı kargüzarlıq vəzifələri üzrə:~~
~~1. CA qrupu.~~
~~2.1.4. D növü - yardımçı texniki vəzifələr üzrə:~~

~~1. DA qrupu.~~ [4]

2.2. *Dövlət qulluğuna qəbul üçün keçirilən test imtahanının məzmunu*, yəni imtahanda istifadə ediləcək tapşırıqların ümumi sayı, tapşırıqların növü (qapalı tipli test tapşırıqları, açıq və esse tipli tapşırıqlar), sahələr və çətinlik dərəcəsi üzrə konkret bölgüsü, ~~yardımçı vəzifələr üzrə tapşırıqların fərqli xüsusiyyətləri,~~ həmçinin vəzifə qrupları üzrə toplanması mümkün olan maksimal bal vəzifələrin qrupundan asılı olaraq Mərkəz tərəfindən, *dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üzrə keçirilən test imtahanının məzmunu isə Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurasının təklifləri əsasında Mərkəz tərəfindən müəyyən edilir.* [5]

2.3. Test tapşırıqlarının hazırlanması və ekspertizasının keçirilməsi Mərkəz tərəfindən təşkil edilir.

2.4. Test tapşırıqlarının aşağıdakı növləri var:

2.4.1. qapalı tipli, yəni verilən cavab variantlarından 1 doğru cavabın müəyyənləşdirilərək qeyd edilməsi tələb olunan test tapşırıqları;

2.4.2. açıq tipli, yəni cavab variantları verilməyən, doğru cavabın müəyyənləşdirilərək yazı ilə ifadə olunması tələb edilən test tapşırıqları;

2.4.3. sərbəst şəkildə cavablandırılan esse tipli tapşırıqlar.

2.5. Test tapşırıqlarının hazırlanması üçün vəzifə qrupları üzrə proqramlar Mərkəz tərəfindən təsdiq edilir. Proqramda test imtahanında yoxlanılacaq biliklər üzrə mövzular, bacarıqlar və təqdim edilməsi mümkün olduğu halda ədəbiyyat siyahısı göstərilir. Test imtahanı proqramları Mərkəzin internet portalında (bundan sonra – portal) yerləşdirilir.

2.6. Hazırlanan qapalı tipli hər bir test tapşırığı aşağıdakı tələblərə cavab verməlidir:

2.6.1. test tapşırığı şərtdən və cavab variantlarından ibarət olmalıdır;

2.6.2. hər bir test tapşırığına cavab variantları hazırlanmalı və bunlardan biri doğru, digərləri isə yanlış olmalıdır;

2.6.3. test tapşırığında düzgün cavab və onun hazırlanmasında istifadə olunan mənbə göstərilməli və həmin tapşırıqların mövzusu ümumiləşdirilmiş proqram, verilmiş ədəbiyyatlar, dərsliklər və dərs vəsaitləri çərçivəsindən kənara çıxmamalıdır;

2.6.4. test tapşırığı mürəkkəblik dərəcəsinə görə sadə, orta və ya mürəkkəb olmalıdır;

2.6.5. test tapşırığının şərti və cavabları dəqiq, aydın və birmənalı olmalıdır.

2.7. Açıq və esse tipli test tapşırıqları Mərkəz tərəfindən müəyyən edilən tələblərə uyğun olaraq hazırlanır. Test tapşırıqları müqavilə əsasında cəlb edilən fiziki və (və ya) hüquqi şəxslər tərəfindən hazırlanır və ekspertizadan keçirilir.

2.8. Ekspertizadan keçirilmiş test tapşırıqları Mərkəz tərəfindən təsdiqlənir və müvafiq sahələr üzrə test bankına daxil edilir. Test bankındakı müvafiq sahələr üzrə test tapşırıqlarının ümumi sayının 35 faizi sadə, 35 faizi orta, 30 faizi isə mürəkkəb olmalıdır.

2.9. Təsdiq edilmiş və test bankına daxil olunmuş test tapşırıqları imtahanda istifadə edilir.

2.10. Qanunvericilikdə edilmiş dəyişikliklər, elmi-texniki tərəqqi və s. nəzərə alınmaqla, test bankında toplanılmış test tapşırıqları mütəmadi ekspertizadan keçirilir.

2.11. Test tapşırıqlarının hazırlanması, ekspertizası, saxlanılması və istifadəsi zamanı onların konfidensiallığı Mərkəz və bu prosesə cəlb edilmiş digər şəxslər tərəfindən təmin edilir.

## 3. Test imtahanının təşkili və keçirilməsi

3.1. Mərkəz inzibati və yardımçı vəzifələrin təsnifat toplusuna uyğun olaraq, *inzibati vəzifələr üzrə* ayda bir dəfədən az olmayaraq test imtahanları təşkil edir. [6]

3.2. Test imtahanında iştirak etmək üçün vətəndaşlar portal vasitəsilə onlayn qeydiyyatdan keçir və portal vasitəsilə ona qeydiyyatdan keçdiyini təsdiq edən elektron bildiriş və namizədin hüquq və vəzifələrinin əks olunduğu yaddaş kitabçası göndərilir.

3.3. Test imtahanının keçirilməsi məqsədi ilə Mərkəz tərəfindən imtahan heyəti və imtahan prosesində iştirak edən digər şəxslər müəyyən edilir.

3.4. Test imtahanı qanunçuluq, obyektivlik, bərabərlik, şəffaflıq və aşkarlıq prinsipləri əsasında keçirilir.

3.5. Test imtahanının keçirilmə yeri və vaxtı Mərkəz tərəfindən müəyyən edilir və bu barədə imtahana azı 5 gün qalmış portalda məlumat yerləşdirilir. Mərkəz namizədin test imtahanında iştirakı ilə bağlı məlumatı özündə əks etdirən imtahana buraxılış vərəqəsini portalda yerləşdirir və namizəd onu çap edərək əldə edir.

3.6. Namizəd şəxsiyyətini təsdiq edən sənədi və imtahana buraxılış vərəqəsini təqdim etməklə, test imtahanında iştirak edir. Namizəd test imtahanında iştirak edərkən, yaddaş kitabçasında əks olunan tələblərə və namizədlər barədə müəyyən edilmiş qadağalara əməl etməlidir. Namizədin bu tələblərə və qadağalara əməl etməməsi halları Mərkəz tərəfindən aşkar edildikdə, onun imtahan nəticələrinin ləğv olunması barədə qərar qəbul edilir. Bu qərardan inzibati qaydada və məhkəməyə şikayət verilə bilər.

3.7. İmtahan Mərkəzin qərarı əsasında kompüter və (və ya) kağız daşıyıcılar vasitəsilə keçirilir.

3.8. İmtahanın davametmə müddəti Mərkəz tərəfindən imtahanın məzmunundan (namizədlərə verilən test tapşırıqlarının növündən və sayından) asılı olaraq, aşağıdakı qayda nəzərə alınmaqla müəyyən edilir:

3.8.1. qapalı tipli test tapşırıqlarının hər biri üçün 1 dəqiqə 30 saniyə;

3.8.2. açıq tipli test tapşırıqlarının hər biri üçün 2 dəqiqə;

3.8.3. esse tipli tapşırıqların hər biri üçün 30 dəqiqə.

3.9. Namizəd ona ayrılmış vaxtdan istifadə etməkdə sərbəstdir.

3.10. Texniki səbəblərdən imtahanın aparılması mümkün olmadıqda, Mərkəzin qərarı əsasında imtahan davam etdirilə və ya yenidən aparıla bilər.

3.11. Test imtahanının nəticələri haqqında məlumat portalda yerləşdirilir.

3.12. Namizədin müraciəti əsasında Mərkəz tərəfindən ona imtahanın nəticəsinə dair arayış verilir.

## 4. Qiymətləndirilmənin aparılması

4.1. Namizədin imtahanda verdiyi cavablar aşağıdakı qaydada qiymətləndirilir:

4.1.1. qapalı tipli test tapşırıqlarının hər birinin doğru cavablandırılması 1, yanlış cavablandırılması və ya cavablandırılmaması 0 balla;

4.1.2. açıq tipli tapşırıqların hər birinin doğru cavablandırılması 2, yanlış cavablandırılması və ya cavablandırılmaması 0 balla;

4.1.3. esse tipli tapşırıqların cavablandırılması cavabın həcmindən, strukturundan, fikirlərin və baxışların məntiqlilik dərəcəsindən, nümayiş etdirilən yaradıcılıqdan, arqumentasiyadan, söz ehtiyatından, orijinallıqdan, üslubdan və dil qaydalarına riayət edilməsindən asılı olaraq 0 - 30 balla, cavablandırılmaması 0 balla.

4.2. Vəzifə altqrupları üzrə test imtahanından keçid balları toplanması mümkün olan ümumi bala nisbətdə aşağıdakı qaydada müəyyən olunur:

| Vəzifə qrupu | Vəzifə altqrupu | Keçid balı (faizlə) |
|---|---|---|
| ~~AA~~[7] | ~~AA1~~ | ~~85~~ |
| | ~~AA2~~ | ~~80~~ |
| | ~~AA3~~ | ~~75~~ |
| | ~~AA4~~ | ~~70~~ |
| AB | AB1 | 85 |
| | AB2 | 80 |
| | AB3 | 75 |
| | AB4 | 70 |
| AC | AC1 | 80 |
| | AC2 | 75 |
| | AC3 | 70 |
| | AC4 | 65 |
| BA | BA1 | 85 |
| | BA2 | 80 |
| | BA3 | 75 |
| | BA4 | 70 |
| BB | BB1 | 80 |
| | BB2 | 75 |
| | BB3 | 70 |
| | BB4 | 65 |
| ~~CA~~ | ~~CA1~~ | ~~80~~ |
| | ~~CA2~~ | ~~75~~ |
| | ~~CA3~~ | ~~70~~ |
| | ~~CA4~~ | ~~65~~ |
| ~~DA~~[8] | ~~DA1~~ | ~~75~~ |
| | ~~DA2~~ | ~~70~~ |
| | ~~DA3~~ | ~~65~~ |
| | ~~DA4~~ | ~~60~~ |

4.3. Namizəd test imtahanının nəticələri ilə razı olmadıqda, nəticələr portalda yerləşdirildiyi gündən 3 iş günü müddətində Mərkəz tərəfindən yaradılmış apelyasiya komissiyasına şikayət verə bilər. Şikayətə baxıldıqdan sonra nəticələrə dair müvafiq qərar qəbul edilir. Namizəd bu qərardan məhkəməyə şikayət verə bilər.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 27 noyabr 2017-ci il tarixli **513** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 29 noyabr 2017-ci il, 263, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 11, maddə 2175)**
2. 4 aprel 2019-cu il tarixli **148** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 7 aprel 2019-cu il, 74 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 745)**
3. 17 yanvar 2020-ci il tarixli **14** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 18 yanvar 2020-ci il, 10 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 1, maddə 71)**
4. 15 mart 2022-ci il tarixli **81** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 17 mart 2022-ci il, 58 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 3, maddə 267)**
5. 17 mart 2022-ci il tarixli **97** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 20 mart 2022-ci il, 61 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 3, maddə 274)**


## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 27 noyabr 2017-ci il tarixli **513** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 29 noyabr 2017-ci il, 263, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 11, maddə 2175)** ilə "Dövlət qulluğuna qəbul, dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi və dövlət qulluğu vəzifələrinin tutulması məqsədi ilə keçirilən test imtahanları üçün test nümunələrinin hazırlanması, ekspertizası, təsdiqi, test imtahanının təşkili, keçirilməsi, qiymətləndirmənin aparılması Qaydası"nın 1.1-ci bəndinə "**birinci-beşinci kateqoriya dövlət orqanlarında**" sözlərindən sonra "**(yerli icra hakimiyyəti orqanları, yerli icra hakimiyyəti orqanlarının yanındakı orqanlar və inzibati ərazi dairələri üzrə**

**nümayəndəlikləri istisna olmaqla**)" sözləri əlavə edilmişdir və həmin bənddən "**və ali-beşinci kateqoriya dövlət orqanlarında yardımçı vəzifələr**" sözləri çıxarılmışdır.

4 aprel 2019-cu il tarixli **148** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 7 aprel 2019-cu il, 74 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 745**) ilə "Dövlət qulluğuna qəbul, dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi və dövlət qulluğu vəzifələrinin tutulması məqsədi ilə keçirilən test imtahanları üçün test nümunələrinin hazırlanması, ekspertizası, təsdiqi, test imtahanının təşkili, keçirilməsi, qiymətləndirmənin aparılması Qaydası"nın 1.1-ci bəndində "**və inzibati ərazi dairələri üzrə nümayəndəlikləri**" sözləri "**, inzibati ərazi dairələri üzrə nümayəndəlikləri və sahə inzibati ərazi dairələri üzrə nümayəndəlikləri** " sözləri ilə əvəz edilmişdir.

17 yanvar 2020-ci il tarixli **1 4** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 18 yanvar 2020-ci il, 10 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 1, maddə 71**) ilə "Dövlət qulluğuna qəbul, dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi və dövlət qulluğu vəzifələrinin tutulması məqsədi ilə keçirilən test imtahanları üçün test nümunələrinin hazırlanması, ekspertizası, təsdiqi, test imtahanının təşkili, keçirilməsi, qiymətləndirmənin aparılması Qaydası"nın 1.1-ci bəndində "**yerli icra hakimiyyəti orqanlarının yanındakı orqanlar, inzibati ərazi dairələri üzrə nümayəndəlikləri və**" sözləri "**Bakı Şəhər İcra Hakimiyyəti başçısının yanında olan orqanlar, yerli icra hakimiyyəti başçılarının yanında avtomobil nəqliyyatı ilə sərnişindaşıma idarələri, yerli icra hakimiyyəti başçılarının inzibati ərazi dairələri üzrə nümayəndəlikləri və**" sözləri ilə əvəz edilmişdir və həmin bəndə "**təsnifatına**" sözündən sonra "(**Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında təyin olunan ticarət nümayəndələri istisna olmaqla**)" sözləri əlavə edilmişdir.

15 mart 2022-ci il tarixli **81** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 17 mart 2022-ci il, 58 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 3, maddə 267**) ilə "Dövlət qulluğuna qəbul, dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi və dövlət qulluğu vəzifələrinin tutulması məqsədi ilə keçirilən test imtahanları üçün test nümunələrinin hazırlanması, ekspertizası, təsdiqi, test imtahanının təşkili, keçirilməsi, qiymətləndirmənin aparılması Qaydası"nın 1.1-ci bəndindən "**fəaliyyət göstərən səfirlik və konsulluqlarında təyin olunan**" sözləri çıxarılmışdır.

17 mart 2022-ci il tarixli **97** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 20 mart 2022-ci il, 61 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 3, maddə 274**) ilə "Dövlət qulluğuna qəbul, dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi və dövlət qulluğu vəzifələrinin tutulması məqsədi ilə keçirilən test imtahanları üçün test nümunələrinin hazırlanması, ekspertizası, təsdiqi, test imtahanının təşkili, keçirilməsi, qiymətləndirmənin aparılması Qaydası"nın 1.1-ci bəndinə "**abzasına**" sözündən sonra "**və 28-1-ci maddəsinə**" sözləri əlavə edilmişdir və həmin bənddə "**birinci-beşinci**" sözləri "**1-5-ci**" sözləri ilə əvəz edilmişdir.

[2] 27 noyabr 2017-ci il tarixli **513** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 29 noyabr 2017-ci il, 263 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 11, maddə 2175**) ilə "Dövlət qulluğuna qəbul, dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi və dövlət qulluğu vəzifələrinin tutulması məqsədi ilə keçirilən test imtahanları üçün test nümunələrinin hazırlanması, ekspertizası, təsdiqi, test imtahanının təşkili, keçirilməsi, qiymətləndirmənin aparılması Qaydası"nın 2.1-ci bəndinin birinci cümləsində "**, dövlət qulluğu vəzifələri üzrə**" sözləri "**inzibati vəzifələr üzrə**" sözləri ilə əvəz edilmişdir.

[3] 17 mart 2022-ci il tarixli **97** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 20 mart 2022-ci il, 61 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 3, maddə 274**) ilə "Dövlət qulluğuna qəbul, dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi və dövlət qulluğu vəzifələrinin tutulması məqsədi ilə keçirilən test imtahanları üçün test nümunələrinin hazırlanması, ekspertizası, təsdiqi, test imtahanının təşkili, keçirilməsi, qiymətləndirmənin aparılması Qaydası"nda 2.1.1-ci yarımbəndin 1-ci abzası ləğv edilmişdir.

[4] 27 noyabr 2017-ci il tarixli **513** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 29 noyabr 2017-ci il, 263 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 11, maddə 2175**) ilə "Dövlət qulluğuna qəbul, dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi və dövlət qulluğu vəzifələrinin tutulması məqsədi ilə keçirilən test imtahanları üçün test nümunələrinin hazırlanması, ekspertizası, təsdiqi, test imtahanının təşkili, keçirilməsi, qiymətləndirmənin aparılması Qaydası"nın 2.1.3-cü və 2.1.4-cü yarımbəndləri ləğv edilmişdir.

[5] 27 noyabr 2017-ci il tarixli **513** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 29 noyabr 2017-ci il, 263 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 11, maddə 2175**) ilə "Dövlət qulluğuna qəbul, dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi və dövlət qulluğu vəzifələrinin tutulması məqsədi ilə keçirilən test imtahanları üçün test nümunələrinin hazırlanması, ekspertizası, təsdiqi, test imtahanının təşkili, keçirilməsi, qiymətləndirmənin aparılması Qaydası"nın 2.2-ci bəndindən "**yardımçı vəzifələr üzrə tapşırıqların fərqli xüsusiyyətləri,**" sözləri çıxarılmışdır.

17 mart 2022-ci il tarixli **97** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 20 mart 2022-ci il, 61 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 3, maddə 274**) ilə "Dövlət qulluğuna qəbul, dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi və dövlət qulluğu vəzifələrinin tutulması məqsədi ilə keçirilən test imtahanları üçün test nümunələrinin hazırlanması, ekspertizası, təsdiqi, test imtahanının təşkili, keçirilməsi, qiymətləndirmənin aparılması Qaydası"nın 2.2-ci bəndində "**Test imtahanının məzmunu**" sözləri "**Dövlət qulluğuna qəbul üçün keçirilən test imtahanının məzmunu**" sözləri ilə, "**müəyyən edilir**" sözləri isə "**, dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üzrə keçirilən test imtahanının məzmunu isə Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurasının təklifləri əsasında Mərkəz tərəfindən müəyyən edilir**" sözləri ilə əvəz edilmişdir.

[6] 27 noyabr 2017-ci il tarixli **513** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 29 noyabr 2017-ci il, 263 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 11, maddə 2175**) ilə "Dövlət qulluğuna qəbul, dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi və dövlət qulluğu vəzifələrinin tutulması məqsədi ilə keçirilən test imtahanları üçün test nümunələrinin hazırlanması, ekspertizası, təsdiqi, test imtahanının təşkili, keçirilməsi, qiymətləndirmənin aparılması Qaydası"nın 3.1-ci bəndinə "**uyğun olaraq,**" sözlərindən sonra "**inzibati vəzifələr üzrə**" sözləri əlavə edilmişdir.

[7] 17 mart 2022-ci il tarixli **97** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 20 mart 2022-ci il, 61 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 3, maddə 274**) ilə "Dövlət qulluğuna qəbul, dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi və dövlət qulluğu vəzifələrinin tutulması məqsədi ilə keçirilən test imtahanları üçün test nümunələrinin hazırlanması, ekspertizası, təsdiqi, test imtahanının təşkili, keçirilməsi, qiymətləndirmənin aparılması Qaydası"nda 4.2-ci bəndin cədvəlindən "**AA**" sətri çıxarılmışdır.

[8] 27 noyabr 2017-ci il tarixli **513** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 29 noyabr 2017-ci il, 263 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 11, maddə 2175**) ilə "Dövlət qulluğuna qəbul, dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi və dövlət qulluğu vəzifələrinin tutulması məqsədi ilə keçirilən test imtahanları üçün test nümunələrinin hazırlanması, ekspertizası, təsdiqi, test imtahanının təşkili, keçirilməsi, qiymətləndirmənin aparılması Qaydası"nda 4.2-ci bəndin cədvəlindən "**CA**" və "**DA**" sətirləri çıxarılmışdır.